Biblioteca
nazionale
centrale
di Roma

# Roma Mərkəzi Milli Kitabxanası və

# Azərbaycan Milli Kitabxanası arasında

# ANLAŞMA MEMORANDUMU

**Bakı**

**2023**

**Bu Anlaşma Memorandumu (bundan sonra "Memorandum" adlandırılacaq) Bakı şəhəri, Xaqani küçəsi 29, Azərbaycan, 1000 ünvanında yerləşən Azərbaycan Milli Kitabxanası ilə Roma, Viale Kastro Pretorio 105, 00185 - İtaliya ünvanında yerləşən Roma Mərkəzi Milli Kitabxanası arasında bağlanmışdır.**

**Tərəflər**

Roma Milli Mərkəzi Kitabxanasının direktoru Dr. Stefano Campagnolo BNCR-ni təmsil edir.

**(Birinci Tərəf)**

Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov Azərbaycan Milli Kitabxanasını təmsil edir.

**(İkinci Tərəf)**

Roma Milli Mərkəzi Kitabxanası və Azərbaycan Milli Kitabxanası, bundan sonra "Tərəflər" adlandırılacaq

## 1. Memorandumun məqsədi

Bu Memoranduma uyğun olaraq, tərəflər öz fəaliyyətlərini qarşılıqlı tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında aparmağı öhdələrinə götürürlər.

## 2. Memorandumun prinsipləri

2.1. Memorandumun prinsipləri bunlardır:

2.1.1. Tərəflər arasında kitabların, kataloqların, əsərlərin və arxiv nüsxələrinin mübadiləsi

2.1.2. Tərəflər arasında təcrübə və ideyalar mübadiləsi məqsədilə seminarlar, konfranslar, elmi görüşlər, birgə tədbirlər təşkil etmək

2.1.3. Hər iki kitabxananın məzmununu zənginləşdirmək üçün qarşılıqlı əhəmiyyət kəsb edən kitabların və arxiv sənədlərinin surətlərinin mübadiləsini dəstəkləmək

2.1.4. Biblioqrafiya, kitabxanaşünaslıq və arxiv işi sahəsində birgə elmi tədqiqatlar aparmaq və inkişaf etdirmək.

2.1.5. İnformasiya texnologiyaları sahəsində təcrübə və bilik mübadiləsi aparmaq

2.1.6. Müasir texnologiyalar və arxivçilik sahəsində biliklərin qarşılıqlı faydalı mübadiləsini təmin etmək üçün alim və ekspertlərin mübadiləsini asanlaşdırmaq

2.1.7. Tərəflər arasında əməkdaşlığın dərinləşdirilməsi üçün arxiv mərkəzlərində müasir texnologiyalardan istifadə haqqında məlumat mübadiləsi aparmaq. Ölkənin ümumi vəziyyətini, təşkilatını və qanunvericiliyi nəzərə alaraq elektron resursun bölüşdürülməsi üzrə əməkdaşlıq etmək.

2.1.8. Tərəflər əməkdaşlığın inkişafına təkan vermək üçün alim və tədqiqatçılara konfrans və sərgilərin təşkilinə, kitabxana haqqında ev sahibi ölkənin ana dilində filmlərin nümayişinə, bukletlərin, fotoşəkillərin, plakatların çapına dəstək verməlidirlər.

2.1.9. Bu Anlaşma Memorandumunun şərtləri tərəflərin qarşılıqlı razılığı ilə istənilən vaxt uzadıla və ya məhdudlaşdırıla bilər.

## 3. Qüvvəyəminmə və Qüvvədəolma Müddəti

3.1. Bu Memorandum imzalandığı tarixdən qüvvəyə minir və 3 (üç) il müddətində qüvvədə qalır. Bu Memorandum qarşılıqlı razılaşma əsasında əlavə müddətə davam etdirilə bilər

3.2. Memorandumun ləğvi aşağıdakı şərtlərlə mümkün olacaq:

a) Memorandum tərəflərin qarşılıqlı razılığı ilə ləğv edilə bilər

b) Memorandumun ləğvi tərəflərdən hər hansı birinin təşəbbüsü ilə Memorandumun dayandırılmasından ən geci 30 gün əvvəl, digər tərəfə göndərilməli olan yazılı bildiriş yolu ilə mümkün olacaqdır.

## 4. Öhdəliklər

4.1. Tərəflər bu Memorandumun şərtlərini qarşılıqlı hörmət və xoş niyyət əsasında yerinə yetirməyi və qarşılıqlılıq və əlaqələndirmə prinsiplərini rəhbər tutaraq əməkdaşlığı inkişaf etdirməyi öhdələrinə götürürlər.

4.2. Tərəflər digər tərəfin qanuni hüququ və ya mənafeyi ilə bağlı istənilən şərti müzakirə etmək öhdəliyi götürürlər

## 5. Düzəlişlər

5.1. Bu Memorandumun tərəfləri tərəfindən və bu Memorandumun tərəfləri arasında qarşılıqlı olaraq razılaşdırılan hər hansı dəyişiklik, təftiş və ya düzəlişlər yazılı sənədlə daxil edilir və bu Memorandumun bütün tərəfləri tərəfindən icra olunduqdan və imzalandıqdan sonra qüvvəyə minir.

## 6. Tərəfdaşlıq

6.1. Bu Memorandum əsasında tərəfdaşlıq, tərəflərə hər hansı birlik, ittifaq və ya müəssisə yaratmağa imkan vermir.

6.2. Tərəflərdən heç birinin üçüncü şəxslə münasibətdə digərinin adından hərəkət etmək səlahiyyəti yoxdur.

6.3. Tərəflər bütün tərəfdaşlıq münasibətlərini qarşılıqlı hörmət əsasında qurur və bir-birinin daxili işlərinə qarışmamaq prinsipini müdafiə edirlər.

## 7. Digər Şərtlər

7.1. Bu Memorandumda hər hansı digər yazılı və ya şifahi razılaşma yoxdur.

BUNUN təsdiqi olaraq, lazımi qaydada səlahiyyətli olan aşağıda imza edənlər 20 sentyabr 2023-cü il tarixində Bakı şəhərində üç nüsxədə Azərbaycan, italyan və ingilis dillərində Memorandumu imzaladılar, tərəflərin hər biri üçün bərabər məcburi qüvvəyə malikdir və qüvvədə saxlanılır.

| Roma Mərkəzi Milli Kitabxanası | Azərbaycan Milli Kitabxanası |
|---|---|
| Direktor | Direktor |
| Dr. Stefano Campagnol | Prof. Kərim Tahirov |
| ______________________ | ______________________ |

AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ * M.F. AXUNDOV adına AZƏRBAYCAN MİLLİ KİTABXANASI *